**№ 60**
**09.08.2018**

# ƏMR

**Bakı şəhəri**

**"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanının 9-cu hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Analitik Ekspertiza Mərkəzinin direktoru M.Süleymanova, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru vəzifəsini icra edən İ.Abdullayevə və Respublika Narkoloji Mərkəzinin direktoru vəzifəsini icra edən A.Səmədovaya tapşırılsın:

1.1. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin, verilən hüquqmüəyyənedici sənədlərin sözügedən Fərmanın 1-ci hissəsində nəzərdə tutulan reyestr fəaliyyətə başladıqdan sonra bir ay müddətində, sonrakı dövrlərdə müəyyən edilən hər bir yeni xidmətin və verilən hüquqmüəyyənedici sənədin 10 (on) gün müddətində reyestrdə qeydə alınması təmin edilsin;

1.2. Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş reyestrə daxil olan xidmətlərin göstərilməsini və hüquqmüəyyənedici sənədlərin verilməsi, həmin reyestr fəaliyyətə başlayana qədər isə Fərmanın 4-cü hissəsində nəzərdə tutulan siyahıdakı xidmətlərin Kiçik və Orta Biznes (bundan sonra KOB) evləri vasitəsilə həyata keçirilməsi təmin edilsin;

1.3. KOB evlərində xidmət göstərəcək əməkdaşlarının nəzakətli, məsuliyyətli, peşəkar olmalarına, ünsiyyət qurmaq və izah etmək bacarıqlarına xüsusi diqqət yetirilsin;

1.4. Fərmanın 9.2-ci bəndinə uyğun olaraq, xidmət göstərilməsinin və hüquqmüəyyənedici sənədlər verilməsinin KOB evləri vasitəsilə həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafıAgentliyin (bundan sonra Agentlik) həmin evlərdə onlar üçün müəyyən etdiyi yerlər zəruri işçi qüvvəsi ilə təmin edilsin.

2. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə və Hüquq və daxili nəzarət sektorunun müdiri E.Əzizova tapşırılsın:

2.1. hazırlanan mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinə təsir edəcək normativ hüquqi aktların normayaratma orqanına təqdim edilməzdən əvvəl "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46-cı maddəsinə uyğun olaraq Agentlik ilə razılaşdırılması, həmçinin qeyd olunan sahədə nazirliyin qəbul etdiyi normativ hüquqi aktların Agentlik ilə razılaşdırmaqla qəbul olunması təmin edilsin;

2.2. Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Agentliyə zəruri kömək göstərilməsi və onun müraciəti əsasında zəruri məlumatların təqdim olunması təmin edilsin.

3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, sözügedən Fərmanın 9.2-ci bəndinə uyğun olaraq, xidmət göstərilməsinin və hüquqmüəyyənedici sənədlər verilməsinin KOB evləri vasitəsilə həyata keçirilməsini təmin etmək üçün Agentliyin həmin evlərdə müəyyən etdiyi yerlər texniki kommunikasiya və informasiya resursları ilə təşkil edilsin.

4.Bu əmrlə verilən tapşırıqların icrası barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumatın verilməsi təmin edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə və Rahim Əliyevə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**